# Qarabağda aqrar sahədə keyfiyyət dəyişiklikləri baş verir

**_Bu il aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva Cəbrayıl və Zəngilan rayonlarında olublar, burada bir çox sosial və istehsal obyektlərinin açılış mərasimlərində iştirak ediblər._**



Dövlətimizin başçısı tərəfindən həmin tədbirlərdə olduqca dəyərli fikir və mülahizələr səsləndirilib. Bu barədə geniş reportajı televiziyadan böyük maraqla izlədim, ölkəmizin bütün vətənpərvər insanları kimi, mən də ekran qarşısında müşahidə etdiklərimdən çox məmnun qaldım.

Qeyd etmək lazımdır ki, möhtərəm Prezidentimizin işğaldan azad edilmiş



bölgələrə hər bir yeni səfəri əhali tərəfindən dərin rəğbət və sevinc hissləri ilə qarşılanır. İnsanlar görürlər ki, Azərbaycan dövləti, onun müdrik lideri Qarabağın yenidən dirçəldilməsinə, orada modern infrastrukturun yaradılmasına, sosial və istehsalat yönümlü müəssisələrin açılmasına xüsusi diqqət və qayğı ilə yanaşır.

Bu barədə çoxlu misallar çəkmək olar. Mən burada yalnız bir misalla kifayətlənəcəyəm. Prezident İlham Əliyev Zəngilanda Beynəlxalq Hava Limanının təməlqoyma mərasimində çıxışı zamanı bildirdi ki, burada birinci “ağıllı” kənd layihəsinin icrasına başlanılır və Ağalı kəndinin təməl daşının qoyulması böyük qayıdışın birinci addımıdır. Dövlətimizin başçısı həmçinin qeyd etdi ki, Ağalı kəndi ötən il oktyabrın 28-də işğalçılardan azad olunmuşdur və altı aydan sonra Ağalıda artıq yeni kəndin təməl daşı qoyulur. Bu, nümunəvi kənd olacaq, çünki bu kənddə tətbiq olunacaq texnologiyalar ən müasir standartlara cavab verir. Həm tikiləcək evlər, ictimai binalar, sosial obyektlər, həm də iş yerləri, əkin sahələri müəyyən edilib. Zəngilanın bütövlükdə təbiəti və təbii sərvətləri bu rayonu Azərbaycanın ən qabaqcıl rayonlarının birinə çevirməyə imkan verəcək.

Mən uzun illərdir aqrar sahədə çalışıram. Kənd təsərrüfatı elmləri üzrə fəlsəfə doktoruyam. Mən görürəm ki, xalqımızın sevimli lideri İlham Əliyevin rəhbərliyi ilə hazırda Azərbaycan kəndində çox mühüm keyfiyyət dəyişiklikləri baş verir. Biz aqrar sahədə dünyanın ən yüksək standartları səviyyəsinə çıxırıq. Bütün bunlar, məni, əlbəttə çox sevindirir. Qarabağda qurulan “ağıllı kənd” və “ağıllı şəhər” modellərinin tezliklə ölkəmizin digər bölgələrində də uğurla tətbiq ediləcəyinə zərrə qədər şübhə etmirəm.

Bir məqamı da vurğulamaq istərdim. Bütün bu vüsətli və geniş miqyaslı işlər ona görə icra olunur ki, gözəl və bərəkətli Qarabağ torpağının əsl sahibləri öz doğma yurdlarına, ata-baba ocaqlarına qayıdaraq burada öz xoşbəxt həyatlarını təmin edə bilsinlər. Dünya görür ki. erməni vandalları Qarabağın şəhər və kəndlərimi viran qoyublar, amma Azərbaycan dövləti bu torpaqları yenidən laləzara çevirir. Bizim ermənilərlə fərqimiz böyükdür, onlar dağıdırlar, biz qurub-yaradırıq.

Azərbaycan xalqı İkinci Qarabağ müharibəsində möhtəşəm qələbə qazanmışdır. Bu tarixi zəfər Azərbaycan dövləti ilə xalqımızın sarsılmaz birliyi sayəsində mümkün olmuşdur. Vətən müharibəsi zamanı olduğu kimi, biz Qarabağın iqtisadi və mədəni intibahı üçün də bütün qüvvələrimizi yenidən birləşdirməyə borcluyuq. Çünki güc birlikdədir.

**_Babakişi QULİYEV,_**
**_Quba Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun şöbə müdiri, aqrar elmlər üzrə fəlsəfə doktoru_**

Xalq qəzeti 2021.- 30 aprel.- S.7.